# Ceyhun Bayramov moldovalı həmkarını Naxçıvana edilən dron hücumları barədə məlumatlandırıb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Moldovanın Baş nazirinin müavini, xarici işlər naziri Mixay Popşoi arasında təkbətək və geniş-tərkibli görüşlər keçirilib.**



AZƏRTAC xəbər verir ki, nazirlər ikitərəfli siyasi dialoqun davam etdirilməsi və genişləndirilməsi yollarını, iqtisadiyyat, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsini, həmçinin Birləşmiş Millətlər Təşkilatı və ATƏT də daxil olmaqla, beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətin əlaqələndirilməsi məsələlərini müzakirə ediblər.

Nazirlər həmçinin Yaxın Şərqdə formalaşan gərgin və dəyişkən təhlükəsizlik vəziyyətinə də toxunublar. C.Bayramov martın 5-də İran tərəfindən Azərbaycanın Naxçıvan Muxtar Respublikasına həyata keçirilən dron hücumları ilə bağlı ciddi narahatlığımızı ifadə edib. Hücum nəticəsində mülki infrastruktur obyektlərinə, o cümlədən hava limanına və məktəb binasına ziyan dəydiyini, mülki şəxslərin yaralandığını qonağın diqqətinə çatdırıb.

Nazir həmçinin moldovalı həmkarına Azərbaycan ilə Ermənistan arasında davam edən normallaşma və sülh prosesi barədə məlumat verib.

Azərbaycan. - 2026.-7 mart (№44).- S.3.